**Bioloji Təhlükənin Azaldılması Proqramı zərzivəsində gürğş**

«Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında Saziş» çərçivəsində ABŞ Müdafiə Departamenti və Azərbaycanın müxtəlif dövlət qurumlarının (Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərüffatı Nazirliyi və s.) iştirakı ilə illik icmal görüşü keçirilmişdir. Tədbirin keçirilməsində məqsəd Bioloji Təhlükənin Azaldılması Proqramı üzrə görülmüş işlər, davam edən layihələr, eləcə də əməkdaşlıq perspektivlərini müzakirə etmək olmuşdur.

İclasda Vergilər Nazirliyini Beynəlxalq münasibətlər idarəsinin rəisi səlahiyyətlərinin müvəqqəti icraçısı Mətin Kərimli və həmin idarənin Beynəlxalq müqavilələr şöbəsinin böyük dövlət vergi müfəttişi Səbinə Mirzəyeva təmsil etmiş, podratçı şirkətlərin Azərbaycanda aldığı əşya və xidmətlərin ƏDV-yə sıfır (0) dərəcəsi ilə cəlb olunması üçün 29 dekabr 2011-ci il tarixli «Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol»da əks olunan tələblər barədə ABŞ tərəfinə məlumat vermişlər.